*H.Seyidzadənin anadan olmasının 105 illiyi münasibətilə*

# XALQIN SEVİMLİ REJİSSORU



**Musiqili komediya janrındakı debütü ilə kino sənəti dünyasına rejissor imzasını atdı. Film, zamanında ciddi tənqidlərə məruz qalsa da, bu günə qədər böyük tamaşaçı sevgisindən heç əskilmədi. Və film təkcə rejissorun, ssenari müəllifinin deyil, Azərbaycan filminin şah əsərlərindən biri kimi kino tariximizə düşdü.**

**O, heç kimə bənzəmədi. Daha doğrusu, bənzəmək istəmədi. Hüseyn Seyidzadə kimi yaşadı. Məğrur, vüqarlı...**

Hüseyn Seyidzadə 1910-cu il oktyabrn 19-da Qərbi Azərbaycanın İrəvan şəhərində tacir ailəsində dünyaya göz açmışdır. Ermənilərin dəhşətli təzyiqlərinə məruz qalan ailə Tiflisə, sonra isə Bakıya köçməyə məcbur olmuşdur. Trikotaj fabrikində fəhlə işləyən Hüseyn qəlbində yaşayan səhnə sevgisi ilə Bakı işçi teatrına gəlir, hətta kütləvi səhnələrdə epizodik rollarda çıxış da edərdi.

...Hüseynin istedadını və həvəsini dəyərləndirən teatrın rəhbərliyi onu keçmiş Leninqradın Dövlət Fəhlə Gənclər Teatrına təcrübə keçməyə göndərir. Leninqradın sənət mühitində kino onu daha çox cəlb edir. Təcrübə müddətindən sonra Bakıya qayıdan Seyidzadə taleyini həmişəlik olaraq yeni yaranan bu sənət növünə bağlayır.

1930-cu ildə Boris Medvedev və İvan Frolov onu "İlk komsomol buruğu" filmində neftçi roluna çəkir. Aktyor debütü ona uğur gətirir. Az sonra İqor Slavçenkonun "Əlsiz adamlar" filmində fəhlə rolunu oynayır. Lakin gənc Hüseyni kinorejissorluq daha çox cəlb edir. Bu istəklə Moskva ümumittifaq Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olur. Lev Kuleşovdan, Sergey Eyzeynşteyndən ustad dərsləri alır.

Bakıya qayıdan Seyidzadə yaradıcılığı boyu onu izləyəcək müxtəlif çətinliklər, təzyiqlər, konfliktlərlə qarşılaşır. İ.Qasımov və Ə.Məmmədxanlının ssenarisi əsasında çəkilişlərinə başladığı "Ayna" filmi rəhbərlik tərəfindən dayandırılır. 1942-ci ildə "Ayna"nın materiallarından istifadə edərək "Sovqat" filmini çəkir. Filmdə o, milli aktyorların çəkilişinə xüsusi diqqət verir. Leyla Bədirbəyli, Ələsgər Ələkbərov, Rza Darablı, Möhsün Sənani, Mirmahmud Kazımovski kimi aktyorlar "Sovqat"da rol alırlar.

Qısametrajlı "Sovqat" filmindən sonra Hüseyn Seyidzadə ilk tammetrajlı filmin debütünü 14 il gözləməli olur. "Lenfilm", "Mosfilm", Moskvadakı Qorki adına kinostudiyalarda təcrübə keçir, rejissor assistenti, ikinci rejissor kimi fəaliyyət göstərir. Bu illərdə dövrünün ən görkəmli rejissorları Mixail İliç Rommun və Mixail Edişeroviç Çiaurelinin yanında işləyir. Vsevolod İllarionoviç Pudovkinin və Dmitri İvanoviç Vasilyevin "Jukovski" filmində sənət təcrübəsi keçir. Hüseynin yüksək peşəkarlığı ustadların nəzərindən yayınmır. Filmin istehsalı başa çatandan sonra onlar "Mosfilm" kinostudiyasının direktoruna titrlərdə gənc rejissorun da adının verilməsi üçün yazılı şəkildə müraciət edirlər.

H.Seyidzadə Üzeyir Hacıbəylinin bədii obrazını ekrana gətirmək arzusu ilə yaşayır. Bakıya qayıdandan sonra 23 iyun 1949-cu il tarixində Azərbaycanın kino rəhbərliyinə Üzeyir Hacıbəyli haqqında film çəkmək arzusunu bildirir. Lakin hansısa maraqlara söykənən rəhbərlik onun müraciətinə etinasız yanaşır.

Moskva təhsilli 39 yaşlı kinorejissor bədii filmlər üzrə birinci kateqoriyalı ikinci rejissor ştatında çırpınır. SSRİ Xalq artisti, üç dəfə Stalin mükafatı laureatı, kinorejissor Vsevolod Pudovkin "Bakıfilm"in direktoru N.Vəzirova 8 aprel 1950-ci il tarixli məktubunda Seyidzadənin daha yüksək kateqoriyaya layiq olduğunu bildirir. 23 mart 1953-cü il tarixli məktubunda isə Hüseyn Seyidzadəni arxalandığı bacarıqlı şagirdlərindən biri kimi səciyyələndirir. Və ona müstəqil quruluş etibar etmək haqqında qənaətini bildirir. Beş dəfə Stalin mükafatı laureatı, SSRİ Xalq artisti Mixail Romm, SSRİ Xalq artisti, iki dəfə Stalin mükafatı laureatı, kinorejissor Qriqori Vaselyeviç Aleksandrov da gənc azərbaycanlı rejissora müstəqil quruluş vermək barədə rəhbərliyə məktub yazırlar.

Kino rəhbərliyi Seyidzadəyə bu müraciətlərdən sonra "Doğma xalqıma" sənədli filmini həvalə edir. Seyidzadə bu filmin öhdəsindən layiqincə gəlir. Milli kinomuzun tarixində ilk rəngli sənədli film də belə çəkilir.

Nəhayət, 1956-cı ildə Hüseyn Seyidzadə Azərbaycan kinosunda ilk rəngli film olan "O olmasın, bu olsun" musiqili komediyasının çəkilişlərinə başlayır. Hamı Məşədi İbad rolunun klassik ifaçısı Mirzə Ağa Əliyevin bu rola çəkiləciyini gözləyir. Lakin Hüseyn Seyidzadə Əliağa Ağayevin namizədliyi üzərində dayanır. Rejissorun seçimi ciddi mübahisələrlə qarşılanır.

Əliağa Ağayevin rolun öhdəsindən yetərincə gələ bilməyəcəyi barədə bədii şurada fikirlər səslənir. Hüseyn Seyidzadə özünəməxsus inadla bədii şurada Əliağa Ağayevin təsdiqinə nail olur. Bədii şurada rejissorun hambal roluna Əhməd Əhmədovu çəkmək təklifi də razılıqla qarşılanmır. Lakin Hüseyn Seyidzadə mövqeyində dayanır, fikrindən dönmür.

Hüseyn Seyidzadənin kinorejissor sənətkarlığı ifadəli aktyor oyununda, bitkin səhnələrdə, musiqili komediya janrına yüksək peşəkar kimi vaqif olmasında özünü aydın göstərir. O, məharətlə Ü.Hacıbəylinin dəst-xəttini, əsərin ümumi ruhunu və nəfəsini qoruyur. Rejissorun ədəbi mənbəyə düzgün münasibəti filmin ekran həyatında da öz sözünü deyir.

Milli kinomuzun Qızıl fonduna daxil olan həmin film ilk ekran baxışlarında kəskin tənqidlə qarşılanır. Nüfuzlu rəhbər şəxslərdən birinin gözü butafor güldə albalı ağacının yarpağı olduğunu alır... Və kinorejissoru diqqətsizlikdə günahlandırır. Yuxarıdan gələn münasibətin ifadəsi kimi mətbuatda kəskin, qərəzli tənqidlər dərc olunur.

"Müvəffəqiyyətsiz film" (T.Kazımov) adlı ressenziyadan sətirlər: "Hər şeydən əvvəl filmdə Məşədi İbadın obrazı yoxdur. Bu rolu ifa edən artist Ağayev gözəl yumora malik bacarıqlı aktyordur, ancaq o bu filmdə qəti Məşədi İbad deyil. Bu hal bir daha göstərir ki, filmin rejissoru Seyidzadə filmin təməlini düzgün qoymayıb. Buna görə də Məşədi İbad zavallı, tapdalanmış və Rüstəm bəyin növbəti fırıldaqçılığının qurbanı kimi alınıb".

Başqa bir rəydəki tənqidi qeydlərdən: "Təəccüblü burasıdır ki, etiraz doğuran yersiz əlavələrin heç biri studiyanın bədii soveti, həmçinin respublikanın Mədəniyyət Nazirliyi tərəfindən qəbul edilmiş ədəbi ssenaridə yoxdur. Bu əməliyyat rejissor ssenarisində aparılmışdır... Kinokomediyada olmayan, sonra əlavə edilmiş primitiv əhvalatlar—bazarda qoçuların davası, Rüstəm bəyin evində qonaqların qalmaqalı, hamamda verilən çirkin naturalist səhnələr və i.a. kimə lazım idi? Bu əhvalatlar filmdə o qədər hay-küylə verilmişdir ki, komediyanın əsasını təşkil edən ictimai motivlər kölgədə qalır..." (A.Zamanov).

Tənqidi resenziyaların eyni gündə—9 dekabr 1956-cı il tarixində dərci filmə hücumların planlı təşkilini bir daha göstərir.

Yaxşı deyiblər ki, sənət əsərinin ən böyük hakimi zamandır. Keçmiş "Soveksportfilm" Ümumittifaq Birliyinin sədri A.Davıdov Azərbaycan Kinematoqtrafçılar İttifaqının birinci katibi H.Seyidbəyliyə yazdığı 7 dekabr 1970-ci il tarixli məktubunda bildirirdi ki, "O olmasın, bu olsun" 40 ölkəyə, o cümlədən İrana, İraqa, Suriyaya, Əfqanıstana, Tükiyəyə, İngiltərəyə, Pakistana, Yaponiyaya, İtaliyaya, Fransaya satılıb. Məktubda həmçinin göstərilir ki, "O olmasın, bu olsun" İranda böyük uğurla nümayiş olunur.

"Soveksportfilm"in İrandakı nümayəndəsi V.S.Kopinə görə, son illərdə heç bir xarici və yerli film belə müvəffəqiyyət qazanmayıb. Bu filmə baxmaq üçün ətraf kəndlərdən və qəsəbələrdən ailələr axın-axın gəlir. Filmin nümayişi tamaşaçı alqışları ilə dəfələrlə dayandırılır. İndi də Təbrizin küçələrində filmin mahnılarını oxuyurlar. 28 gündə Təbrizin iki kinoteatrında filmə 94.334 tamaşaçı baxıb.

"O olmasın, bu olsun" filmindən sonra kinorejissor bu janrda yeni bir filmin verilməsini ümidlə gözləyir. 1959-cu ildə kinostudiyanın rəhbərliyi ona Sabit Rəhmanın tarixi mövzuda qələmə aldığı "Koroğlu" filminin ssenarisini təklif edir. Film Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 40-cı ildönümünə həsr olunmuşdur.

Artıq "Koroğlu" filminin hazırlıq mərhələsində növbəti çətinliklərlə üzləşən Seyidzadə 2 dekabr 1958-ci il tarixində kinostudiyanın direktoruna yazılı müraciət etmək məcburiyyətində qalır. Direktora operatorun, eləcə də qrimçi-rəssamın olmadığını, quruluşçu rəssamın isə başqa filmdə işlədiyini bildirir.

Baş rolun ifaçısı Ə.Məmmədovun aktyor oyunu Seyidzadəni qanre etmir. 26 avqust 1959-cu il tarixli müraciətində rejissor rəhbərliyə Koroğlu roluna Ələsgər Ələkbərovu çəkmək arzusunu bildirir. Lakin yenə də müraciətləri nəticəsiz qalır.

Bəzi səhnələr istisna olmaqla, ümumilikdə, Seyidzadənin peşəkar dəst-xətti filmdə görünmür. Rejissorun keçirdiyi daxili sarsıntılar, "Koroğlu" filminin çəkilişlərində qarşılaşdığı növbəti gözlənilməz hadisələr filmin ekran həllində, bədii səviyyəsində öz təsirini göstərir.

1965-ci ildə rejissorun tarixi-inqilabi mövzuda lentə aldığı "Yenilməz batalyon" Ümumittifaq ekranında uğurla nümayiş olunur. Sovet kinoşünasları filmin rejissor işini, ifadəli aktyor oyununu, üslubi xüsusiyyətlərini yüksək dəyərləndirirlər. Mövzuda orijinal sənətkar münasibəti, montaj prinsipləri, düşünülmüş mizanlar əksər məqalələrdə düzgün təhlilini tapmışdır.

Hüseyn Seyidzadənin kinostudiyanın rəhbərliyinə 23 sentyabr 1964-cü il tarixli müraciətində Tofiq Hüseynovun qəhrəmanlığı barədə film çəkmək arzusunda olduğunu bildirir. Alla Axundova ilə birgə yazdığı "Var olun, qızlar" ədəbi ssenarisini "Azərbaycanfilm" kinostudiyasının kollegiyası 17 aprel 1971-ci il tarixində kiçik düzəlişlərlə qəbul edir.

1972-ci ildə isə ssenarinin taleyi gözlənilməz finalla bitir. Dənizdə boğulan qızları həyatı bahasına xilas edən Tofiq Hüseynovun şücaətindən bəhs edən əsərə şair Novruz Gəncəli müəlliflik iddiasını bildirir. O, Hüseyn Seyidzadə ilə Alla Axundovanı plagiatda ittiham edərək məhkəməyə verir. Uzun məhkəmə proseslərindən sonra Novruz Gəncəli əsərin müəlliflik hüququnu qazanır.

Yaradıcılığında milli motivlərə geniş yer verən Hüseyn Seyidzadə 1969-cu ildə İsmayıl Şıxlının eyniadlı romanı əsasında yazdığı "Dəli Kür" ssenarisini ekranlaşdırır. Sovet rejiminin qadağalarına baxmayaraq, "Dəli Kür"də də rejissor milli motivlərə xüsusi önəm verir. Milli xüsusiyyətlər, etnoqrafik adət və ənənələr ön plana çəkilir. Xalqımızın ən əziz bayramı olan Novruz parlaq əksini tapır.

Filmdəki milli motivlər SSRİnin Dövlət Kinematoqrafiya Komitəsinin kollegiyasında narazılıqla qarşılanır. Film böyük ixtisarlardan sonra ekrana vəsiqə alır. Baxış zamanı çarizmin işğalçılıq siyasətini əks etdirən final səhnəsi tamamilə çıxarılır. Xoşbəxtlikdən salamat qalan həmin hissə Vətənimizin müstəqilliyi illərində filmə yenidən bərpa edilir.

1970-ci ildə anadan olmasının 60 illiyi münasibətilə Hüseyn Seyidzadə Rusiya, Belorusiya, Latviya, Gürcüstan kinematoqtafçılarından təbrik teleqramları alır. Rejissorun gürcü həmkarlarının teleqramından...

"Hörmətli Hüseyn Seyidzadə! Gürcüstan kinematoqrafçılarının idarə heyətinin katibliyi Sizi anadan olmağınızın 60 illiyi, yaradıcılığınızın 40 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir!

Sizin Azərbaycan kino sənətinin inkişafındakı xidmətləriniz sovet tamaşaçılarına yaxşı məlumdur. "Sovqat", "Odlar diyarı", "Doğma xalqa", "O olmasın, bu olsun", "Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür" təkcə sovet tamaşaçıları arasında deyil, həmçinin ölkəmizin hüdudlarından kənarda da böyük uğur qazanıb. Can sağlığı, xoşbəxtlik, yaradıcılıq uğurları arzulayırıq!

Sənin dostların Rezo Çxeidze, Siko Dolidze, Georgiq Asatiani, Lana Qoqoberidze, Eldar Şengelaya".

Həmin il Hüseyn Seyidzadə Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülür.

1973-cü ildə rejissor "Qatır Məmməd" filminin çəkilişlərinə başlayır. Lakin Seyidzadənin sənətkar taleyini izləyən hadisələr bu filmdən də yan keçmir. O, moskvalı kinodramaturqların yazdıqları ssenaridə qəhrəmanların və hadisələrin ciddi təhrifilə barışmır. 31 oktyabr 1971-ci ildə keçmiş SSRİ Dövlət Kinematoqrafiya Komitəsinə göndərdiyi teleqramdan...

"Gəncəbasarlı qisasçı" ssenarisinin bədii səviyyəsi çox aşağıdır. Ssenaridə dramaturji qüsurlar kifayət qədərdir. Qəhrəmanların, personajların milli xarakteri yoxdur. Göstərilən bu kimi qüsurlara görə zəif film alınacaq. Studiya ikinci dəfə bu ssenarini təsdiqinizə təqdim edir. Gələcək film üçün quruluşçu rejissor kimi şəxsi məsuliyyət daşıdığımı nəzərə alıb ssenarinin son təsdiq mərhələsində məni Moskvaya çağırmağınızı xahiş edirəm.

Quruluşçu rejissor Seyidzadə".

Seyidzadənin qələmilə ssenaridə güclənən milli vətənpərvərlik duyğuları ovaxtkı SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin Kollegiyasını narahat edir. Onlar filmin çəkilişlərinin dayandırılmasını tələb edirlər. Doğma xalqına, tarixinə ürəkdən bağlı olan Seyidzadə SSRİ Dövlət Kinematoqrafiya Komitəsindən növbəti ağır zərbəni alır. Mərkəzin əmrinə əsasən "Gəncəbasarlı qisasçı"nın 80 faizinin çəkilməsinə baxmayaraq, Seyidzadə filmin çəkilişlərindən kənarlaşdırılır. O, baş verən bu qanunsuzluq haqqında 18 yanvar 1974-cü ildə Moskvaya növbəti dəfə müraciət etsə də, hər şey nəticəsiz qalır...

Azərbaycan Dövlət Kinematiqrafiya Komitəsi sədrinin SSRİ Dövlət Kinematoqrafiya komitəsinin rəhbərliyinə yazdığı 18 iyun 1975-ci il tarixli məktubda "Dərviş Parisi partladır" filmini Seyidzadənin çəkəcəyi bildirilir. Məktubda rəhbərlik Seyidzadəni təcrübəli, peşəkar rejissor kimi təqdim edir. Ssenarinin yazılışında onun sənətkar əməyini xüsusi vurğulayır.

H.Seyidzadə bu dəfə də Moskvadan növbəti ağır zərbə alır. SSRİ Dövlət Kinematoqrafiya komitəsinin sədr müavini B.V.Pavlenok Azərbaycan Dövlət Kinematoqrafiya komitəsinin sədri M.Qurbanova yazdığı 24 iyun 1975-ci il tarixli məktubunda bildirir ki, "Gəncəbasarlı qisasçı"da Seyidzadənin işi qeyri-qənaətbəxş olduğuna görə, "Dərviş Parisi partladır" filmini ona həvalə etmək olmaz...

Beləliklə, "Dəli Kür"dən sonra 9 il işsiz qalan, film çəkməyən Seyidzadə, nəhayət, 1978-ci ildə Ə.İbrahimovun və M. Maleyevanın Məcid Şamxalovun "Qayınana" əsəri əsasında yazdıqları eyniadlı ssenariyə quruluş verir. Əsərin ekran variantı Hüseyn Seyidzadənin rejissor şərhində yeni ifadə boyaları ilə diqqəti çəkir. Film bədii ekran məziyyətlərilə geniş tamaşaçı kütləsinin böyük rəğbətini qazanır.

Hüseyn Seyidzadənin rejissurasını qabarıq səciyyələndirən millilik komediya janrının estetikasında özünün bədii ekran həllini tapır. Müxtəlif filmlərdə əsasən epizodik rollarda çəkilən Nəsibə Zeynalova səhnədən sevildiyi, Hüseyn Seyidzadənin quruluşunda filmdə yaratdığı Cənnət obrazı ilə yaradıcılığının yeni ekran zirvəsinə imza atır.

Ekran uğurunda maraqlı aktyor ansamblının da xüsusi yeri var. Filmdə İlham Namiq Kamal, İnarə Quliyeva, Tanilə Əhmərova, Fuad Poladov, Səfurə İbrahimova, Tələt Rəhmanov yaddaqalan obrazlar yaradırlar. Tofiq Quliyevin şən, oynaq mahnıları filmin əsas süjet xəttini üzvi surətdə tamamlayır.

O vaxt "Qayınana"nı təbəssümlə, gülüşlə seyr edənlər Hüseyn Seyidzadənin sonuncu filminə baxdıqlarını ağıllarına belə gətirə bilməzdilər. Mənalı sənət gülüşü ilə böyük ekrana gələn rejissor özünəməxsus gülüş ilə də tamaşaçılardan ayrıldı.

Xan qızı Xurşid banu Natəvan haqqında ekran əsəri yaratmaq rejissoru həyatı boyu düşündürürdü. Bu film ən böyük sənət arzularından biri kimi sənətkar qəlbində əbədi qaldı...

**HATƏM ƏSGƏROV,**
**rejissor.**